MEMORANDUM OF UNDERSTANDING
BETWEEN
THE GOVERNMENT OF THE UNITED STATES OF AMERICA
AND
THE GOVERNMENT OF THE REPUBLIC OF AZERBAIJAN
ON
PUBLIC INVESTMENT POLICY PROJECT

The Government of the United States of America, acting through the United States Agency for International Development (USAID), and the Government of the Republic of Azerbaijan, acting through the Ministry of Economic Development (MoED), hereafter referred to as the "Parties", wish to cooperate in a mutual effort to help strengthen the Government of the Republic of Azerbaijan's institutional capacity for: (a) long-term national and sectoral development and policy planning; (b) capital-budget formulation; and (c) investment project preparation, appraisal, and monitoring and evaluation. USAID and the MoED intend to work in a partnership to achieve this goal.

Accordingly, the Parties have concluded the present Memorandum of Understanding, hereinafter referred to as "MOU", to set forth their understandings with respect to their undertakings in support of the stated purpose. This MOU is not intended to effect an obligation of funds by USAID or the MoED.

ARTICLE 1. UNDERTAKING OF THE PARTIES

1.1. Subject to availability of funds and agreement of Parties to proceed, the U.S. Government, through USAID, wishes to furnish the following technical assistance and training efforts through December 31, 2007, or such later date as the Parties may agree upon in writing:

(a) Technical Assistance to increase the administrative, technical, institutional, and human capacities of the MoED and its subordinate units in the areas of public investment policy and programming and project formulation cycle; and

(b) Training and technical assistance to increase the MoED's capacity to oversee preparation of the Public Investment Program of the Government of the Republic of Azerbaijan, strengthening the inter-linkages and consistency of development planning, budgeting, and investment programming.

USAID will provide the aforementioned assistance through the currently active Public Investment Policy Project.

1.2. With regard to achieving the abovementioned goals, the MoED intends to:

(a) Provide adequate work space and access to telephone and internet lines for Project technical staff in the premises of the MoED;
(b) Assign professional staff of the MoED to collaborate in technical tasks per the mutually agreed Work Plan;
(c) Gradually prepare and apply new principles and methodologies for the Government of the Republic of Azerbaijan Public Investment Program in preparation and management, including requirements for Integrated Project (Cost-Benefit) Analysis for new public investment projects in accordance with relevant, jointly elaborated manuals.

1.3. For the purpose of achieving the above stated goals and objectives, the U.S. Government, subject to the availability of funds, wishes to contribute up to an additional approximately USD 250,000 in calendar year (CY) 2007, for a cumulative total of USD 5,200,000. The above-stated estimated financial contribution by the USG is not intended to effect an obligation of funds. The MoED's in-kind financial contribution in CY 2007 will consist of office space for USAID technical advisors, the creation of a public investment unit within the MoED, and the salaries of MoED staff dedicated to the project. Additionally, the MoED commits to gradually allocating public investment resources through the methodological approach established under the project.

The USG applauds the Government of the Republic of Azerbaijan's expressed desire to assume an increasingly larger share of the costs of this and related assistance to achieve its economic, social and political development goals and objectives. Toward this end, the Parties agree to create a permanent Co-financing Working Group that would establish the mechanisms, timeline, and incremental percentage increases in the Government of the Republic of Azerbaijan share of project costs. The Co-financing Working Group will provide its recommendations to the Parties no later than June 30, 2007. The Government of the Republic of Azerbaijan agrees to include its co-financing share in a discrete line item within subsequent annual national budgets.

ARTICLE 2. STANDARD PROVISIONS

2.1. Relation to Framework Bilateral Agreement: In-kind assistance furnished by USAID pursuant to this MOU is considered United States assistance within the scope of the "Agreement between the United States of America and the Government of the Republic of Azerbaijan Regarding Cooperation to Facilitate the Provision of Assistance" dated May 11, 2000, and is subject to the terms and conditions of that agreement, including provisions relating to exemptions from taxes and customs duties exemptions.

2.2. Third Party Instruments and Availability of Funds: In order to provide the in-kind and financial assistance described above, USAID may enter into such contracts and other instruments with public and private parties as USAID deems appropriate. All undertakings of the U.S. Government pursuant to this MOU are subject to the availability of funds and to further agreement between USAID and such public and private parties, regarding the provision of in-kind assistance. This MOU is not intended to effect an obligation of funds by USAID.

2.3. Compliance with U.S. Law and Regulations: USAID shall obligate, commit and expend funds and carry out operations pursuant to this MOU only in accordance with the applicable laws and regulations of the United States.

2.4. Title to and Use of Property: Unless otherwise directed by USAID, title to all property furnished by USAID shall rest with USAID except for software and related licenses. Any property furnished by USAID shall be used effectively for the assistance purpose described above and, upon completion of the assistance, shall be used so as to further the objectives of the assistance. If property furnished by USAID and titled to the MoED, except for software and related licenses, is used for purposes other than those agreed upon by the Parties, under circumstances which could reasonably have been prevented by appropriate action of the MoED, the MoED shall, upon USAID's request and election, return such property or refund the amount disbursed for such property in U.S. dollars.

2.5. Records, Audit and Inspection: The MoED shall maintain or cause to be maintained, as appropriate, records relating to the assistance adequate to show use and receipt of assistance furnished pursuant to this MOU. Records shall be maintained in accordance with Government of the Republic of Azerbaijan national legislation. The MoED shall afford authorized representatives of USAID, or their designees, the opportunity at all reasonable times to inspect the site of the assistance and records relating to the assistance.

2.6. Exchange Rate: If funds are introduced into Azerbaijan by USAID or any public or private agency for purposes of carrying out obligations of USAID hereunder, the MoED will make such arrangements as may be necessary so that such funds shall be convertible into Azerbaijani manat at the highest rate which, at the time the conversion is made, is not unlawful in the country.

2.7. Publicity: The MoED will give appropriate publicity to the assistance as a program to which the U.S. Government has contributed.

2.8. Information and Implementation Letters: USAID and the MoED shall provide each other with such information as may be needed to facilitate provision of the assistance and to evaluate the effectiveness of this assistance. In addition, USAID may from time to time issue implementation letters to provide additional information on matters discussed in this MOU. The Parties may also use jointly agreed letters to confirm their mutual understandings with respect to implementation of this MOU. Implementation letters shall not be used to amend the text of the MOU.

2.9. Authorized Representatives: The Parties shall be represented by those holding or acting in the offices held by the signatories to this MOU. Each Party may, by written notice to the other, identify additional representatives authorized to represent that Party for all purposes other than executing formal amendments to this MOU. Each Party shall notify the other, in writing, of changes in its authorized representatives.

2.10. Amendment and Modification: This MOU may be amended or modified by written agreement of the Parties.

2.11. Suspension and Termination:

(a) Suspension. In the event:

(i) the MoED fails to comply with any provision of this MOU;

(ii) USAID determines that an extraordinary situation has occurred which makes it improbable either that the purpose of the MOU will be attained or that the MoED will be able to comply with provisions of the MOU; or

(iii) USAID determines that continuation of assistance would result in a violation of U.S. law or regulations,

USAID may, at its option, take steps to suspend, in whole or in part, provision of assistance under this MOU and provide written notice of its actions to the MoED. In the event of partial suspension, such notice shall specify affected activities. If, after sixty (60) days from the date of such notice, USAID determines that the cause or causes for suspension have not been corrected, USAID may terminate assistance and provide written notice of its action to the MoED.

(b) Termination. Either Party may terminate this MOU, in whole or in part, by giving the other Party thirty (30) days written notice. In the event of partial termination, such notice shall specify affected activities. Termination of this MOU will terminate any responsibilities of the Parties to provide financial or other resources for this activity, except for payments which they are committed to make pursuant to non-cancelable commitments entered into with third parties prior to the termination of this MOU. Obligations of the MoED set forth in Section 3.4 above relating to use of property furnished under this MOU shall remain in force after termination. In addition, upon such termination, USAID may, at USAID's expense, direct that title to goods furnished hereunder be transferred to USAID if the goods are from a source outside Azerbaijan, are in a deliverable state, and have not been offloaded in ports of entry of Azerbaijan.

2.12. Assignment: The MoED agrees, upon request, to execute an assignment to USAID of any cause of action which may accrue to the MoED in connection with or arising out of the contractual performance or breach of performance by a party to a direct U.S. dollar contract with USAID financed by USAID in connection with this MOU.

2.13. Nonwaiver of Remedies: No delay in exercising any right or remedy accruing to a Party in connection with this MOU will be construed as a waiver of such right or remedy.

2.14. Language: This MOU is prepared in both English and Azerbaijani. In the event of ambiguity or conflict between the two versions, the English language version will control.

2.15. Effective Date: This MOU shall be effective on the date of signing by both Parties.

In witness whereof, the Parties, each acting through their duly authorized representatives, have caused this MOU to be signed in their names and delivered as of this 7th day of February, 2007.

Douglas Menarchik

Acting Assistant Administrator
for Europe and Eurasia
U.S. Agency for International
Development

Heydar Babayev

Minister of Economic Development
Government of the Republic of Azerbaijan

Amerika Birləşmiş Ştatlarının Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında Dövlət İnvestisiya Siyasəti barədə Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq, Amerika Birləşmiş Ştatlarının Hökuməti adından Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi (bundan sonra "USAID") və Azərbaycan Respublikasının Hökuməti adından Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi (bundan sonra "İqtisadi İnkişaf Nazirliyi") birgə səy göstərərək (a) uzunmüddətli milli və sektor inkişafı və siyasətin planlaşdırılması, (b) kapital büdcənin hazırlanması və (c) investisiya layihələrinin hazırlanması, qiymətləndirilməsi, monitorinq və təhlili üzrə Azərbaycan Respublikası Hökumətinin institusional potensialının gücləndirilməsinə nail olmaq istiqamətində əməkdaşlıq etmək arzusundadır. USAİD və İqtisadi İnkişaf Nazirliyi bu məqsədə nail olmaq üçün tərəfdaş kimi birgə çalışmaq niyyətindədir.

Qeyd olunan məqsədlə Tərəflər üzərilərinə götürdükləri öhdəliklər barədə qarşılıqlı anlaşmanı təsbit etmək üçün hazırkı Anlaşma Memorandumunu (bundan sonra "Memorandum") imzalamışlar. Bu Memorandum USAİD və ya İqtisadi İnkişaf Nazirliyi tərəfindən maliyyə vəsaitlərinin ayrılması üzrə öhdəlik götürülməsi kimi qiymətləndirilməməlidir.

MADDƏ 1. TƏRƏFLƏRİN ÖHDƏLİKLƏRİ

1.1. Maliyyə vəsaiti və Tərəflər arasında birgə fəaliyyəti davam etdirmək barədə razılaşma olduğu halda ABŞ Hökuməti, USAID vasitəsilə, 2007-ci ilin dekabrın 31-ə kimi və ya bundan sonra Tərəflərin yazılı formada razılaşdıracağı digər tarixdə İqtisadi İnkişaf Nazirliyinə aşağıdakı texniki yardım və təlim imkanları təqdim etmək niyyətindədir:

(a) Dövlət investisiya siyasəti və proqramlaşdırılması sahəsində, eləcə də investisiya layihələri dövründə İqtisadi İnkişaf Nazirliyinin və nazirliyin tabe strukturlarının inzibati, texniki, institusional və kadr potensialının artırılmasına texniki yardım;

(b) İqtisadi İnkişaf Nazirliyinin Azərbaycan Respublikası Hökumətinin Dövlət İnvestisiya Proqramının hazırlanmasına nəzarət etmək imkanlarını artırmaq, inkişaf planlaşdırma, büdcə prosesi və investisiya proqramlaşdırma ardıcıllığı və daxili əlaqələrin gücləndirilməsi üçün texniki yardım və təlim imkanlarının təqdim edilməsi.

USAİD yuxarıda qeyd olunan yardımı hal hazırda həyata keçirən Dövlət İnvestisiya Siyasəti Layihəsi vasitəsilə təqdim edəcəkdir.

1.2. Yuxarıda qeyd olunan məqsədlərə nail olmaq üçün İqtisadi İnkişaf Nazirliyi aşağıdakıları etmək niyyətindədir:

a) Layihənin texniki işçi heyətini İqtisadi İnkişaf Nazirliyinin binasında münasib iş yeri, telefon və internetə çıxışla təchiz etmək;

b) Qarşılıqlı surətdə razılaşdırılmış İş Planı üzrə texniki tapşırıqların birgə icrası üçün İqtisadi İnkişaf Nazirliyinin peşəkar işçi heyətini təyin etmək;

c) Yeni dövlət investisiya layihələri üçün birgə işlənib hazırlanmış müvafiq təlim kitabçasına uyğun Layihə (Dəyər-Səmərə) Təhlilinə dair tələblər daxil olmaqla, Azərbaycan Respublikası Hökumətinin Dövlət İnvestisiya Proqramının hazırlanıb idarə olunmasında yeni prinsip və metodologiyaları hazırlayıb mərhələlərlə tətbiq etmək.

1.3. Yuxarıda göstərilən məqsədlərə nail olmaq üçün ABŞ Hökuməti, maliyyə vəsaitlərinin mövcudluğundan asılı olaraq, indiyə kimi layihəyə ayrılmış məbləği 5 200 000 ABŞ dollarına çatdırmaqla ona 2007-ci təqvim ilində təxminən 250 000 ABŞ dolları məbləğinə kimi töhfə əlavə etmək arzusundadır. ABŞ Hökumətinin bu maliyyə töhfəsi maliyyə vəsaitlərinin ayrılması üzrə öhdəlik götürülməsi kimi qiymətləndirilməməlidir. 2007-ci təqvim ilində İqtisadi İnkişaf Nazirliyinin naturada maliyyə töhfəsi USAİD-nin texniki məsləhətçilərinə iş otaqlarının ayrılması, İqtisadi İnkişaf Nazirliyinin nəzdində dövlət investisiya şöbəsinin yaradılması və layihənin icrası ilə məşğul olan İqtisadi İnkişaf Nazirliyinin işçilərinə maaşların ödənilməsindən ibarət olacaqdır. Əlavə olaraq, İqtisadi İnkişaf Nazirliyi layihə çərçivəsində yaradılmış metodoloji yanaşmanı mərhələli şəkildə dövlət investisiya layihələrinə tətbiq etməyi öz öhdəliyinə götürür.

ABŞ Hökuməti Azərbaycan Respublikası Hökumətinin sosial, iqtisadi və siyasi inkişaf məqsədlərinə və məramlarına nail olmaq üçün bu yardımla və növbəti illərdə əlaqəli yardımla bağlı xərclərin getdikcə daha böyük hissəsini öz üzərinə

götürmək istəyini alqışlayır. Bu məqsədlə Tərəflər Azərbaycan Respublikası Hökuməti tərəfindən layihə xərclərinin faiz artımı, icra müddəti, mexanizmlərini müəyyən edən Birgə Maliyyələşdirmə üzrə daimi İşçi Qrupu yaratmağa razılığa gəlirlər. Birgə Maliyyələşdirmə üzrə İşçi Qrup 2007-ci ilin iyunun 30-dan gec olmayaraq Tərəflərə öz tövsiyələrini verəcəkdir. Azərbaycan Respublikası Hökuməti birgə maliyyələşdirmə payını növbəti illik dövlət büdcəsinə ayrıca məxaric maddəsi kimi daxil etməyə öz razılığını bildirir.

MADDƏ 2. ÜMUMİ MÜDDƏALAR

2.1. İkitərəfli Çərçivə Sazişinə münasibət: Bu Memorandum əsasında USAİD tərəfindən naturada təqdim oluna biləcək yardım Amerika Birləşmiş Ştatlarının Hökuməti ilə Azərbaycan Respublikasının Hökuməti arasındakı İkitərəfli Saziş (11 may 2000-ci il tarixli «Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatlarının Hökuməti arasında yardım göstərilməsini asanlaşdırmaq üzrə əməkdaşlıq haqqında Saziş») çərçivəsində Amerika Birləşmiş Ştatlarının yardımı hesab edilir və vergi və gömrük öhdəliklərindən azad olunmanı nəzərdə tutan müddəalar da daxil olmaqla həmin Sazişin müddəa və şərtlərinə tabe olur.

2.2. Üçüncü Tərəfin sənədləri və maliyyə vəsaitlərinin mövcudluğu: Yuxarıda qeyd olunmuş naturada yardımı göstərmək üçün USAİD özünün uyğun hesab etdiyi dövlət və özəl tərəflərlə sazişlər və digər razılaşmalar imzalaya bilər. Amerika Birləşmiş Ştatlarının Memorandum ilə üzərinə götürdüyü bütün öhdəliklər maliyyə vəsaitinin mövcudluğuna və USAİD ilə belə dövlət və özəl tərəflər arasında, naturada yardımın təqdim olunmasına dair razılaşmalarla bağlı olacaqdır. Bu Memorandum USAİD tərəfindən maliyyə vəsaitlərinin ayrılmasına dair öhdəlik təsbit etmək məqsədi daşımır.

2.3. Amerika Birləşmiş Ştatlarının qanun və qaydalarına tabe olmaq: USAID yalnız Amerika Birləşmiş Ştatlarının müvafiq qanun və qaydalarına əsasən maliyyə vəsaitləri ayırır, onları istiqamətləndirir, xərcləyir və Memorandumdan irəli gələn digər əməliyyatları həyata keçirir.

2.4. Əmlak üzərində sahiblik və ondan istifadə: USAID tərəfindən başqa hal nəzərdə tutulmayıbsa, kompüter proqramları və müvafiq lisenziyalar istisna olmaqla USAID tərəfindən təqdim olunmuş bütün əmlak üzərində mülkiyyət hüququ USAİD-də qalacaq. USAİD tərəfindən təqdim oluna biləcək istənilən əmlak yuxarıda təsvir edilmiş məqsəd üçün səmərəli şəkildə istifadə edilməlidir və yardımın müddəti bitdikdən sonra onun məqsədlərinin davam etdirilməsi üçün istifadə olunmalıdır.

USAİD tərəfindən təqdim olunmuş əmlakdan kompüter proqramları və müvafiq lisenziyalar istisna olmaqla, Tərəflərin razılaşdırdıqları məqsədlərdən kənar məqsədlər üçün istifadə olunarsa və əgər İqtisadi İnkişaf Nazirliyi müvafiq hərəkətləri ilə həmin halların müvafiq qaydada qarşısının alınması mümkün olduğu halda belə hərəkətlərin qarşısı alınmamışdırsa, İqtisadi İnkişaf Nazirliyi USAİD-in xahişi və seçimi ilə həmin əmlakı qaytarmalı və ya həmin əmlak üçün xərclənmiş vəsaiti ABŞ dolları ilə ödəməlidir.

2.5. Sənədlər, yoxlama və təftiş: İqtisadi İnkişaf Nazirliyi Memoranduma uyğun olaraq göstərilmiş yardımın qəbulunu və istifadəsini göstərmək üçün zəruri olan, yardımla əlaqədar olaraq birbaşa müvafiq sənədləşdirmə aparmalı və ya aparılmasına dair müvafiq göstəriş verməlidir. Sənədlər yardımın təqdim edildiyi vaxtdan etibarən Azərbaycan Respublikasının milli qanunvericiliyinə əsasən müəyyən edilmiş müddətə saxlanılmalıdır. İqtisadi İnkişaf Nazirliyi USAİD-in səlahiyyətli nümayəndələrinə və ya onların təyin etdiyi şəxslərə istənilən münasib vaxtda yardımın göstərildiyi yer və yardımla əlaqədar sənədləri yoxlamaq üçün imkan yaratmalıdır.

2.6. Mübadilə məzənnəsi: USAİD və ya digər dövlət və ya özəl təşkilat tərəfindən USAİD-nin bu Memorandumda qeyd olunan öhdəliklərinin həyata keçirilməsi məqsədi ilə Azərbaycana maliyyə vəsaiti daxil olarsa, İqtisadi İnkişaf Nazirliyi bu maliyyə vəsaitinin Azərbaycan Manatına, valyutanın konvertasiyasının həyata keçirildiyi vaxtda mövcud olan, ölkə qanunvericiliyinə zidd olmayan ən yüksək məzənnə ilə çevrilməsi üçün lazım ola biləcək zəruri tədbir görəcəkdir.

2.7. Aşkarlıq: İqtisadi İnkişaf Nazirliyi ABŞ Hökumətinin töhfə verdiyi proqram qismində təqdim olunmuş yardım barədə ictimaiyyətə məlumat verəcək.

2.8. Məlumat və icra məktubları: İqtisadi İnkişaf Nazirliyi USAİD və bir-birini yardımın göstərilməsini asanlaşdırmaq və bu yardımın səmərəliliyini qiymətləndirmək üçün lazım ola biləcək məlumatlarla təchiz etməlidir. Bundan əlavə, USAİD vaxtaşırı hazırkı Memorandumda qeyd edilmiş məsələlər barəsində əlavə məlumat vermək üçün icranın vəziyyəti haqqında məktublar təqdim edə bilər. Tərəflər, həmçinin bu Memorandumun icrası ilə əlaqədar olaraq qarşılıqlı anlaşmalarını təsdiq edən birgə razılaşdırılmış məktublardan istifadə edə bilərlər. İcra məktublarından bu Memorandumun mətninə dəyişiklik edilməsi üçün istifadə edilməməlidir.

2.9. Səlahiyyətli nümayəndələr: Tərəflər bu Memorandumu imzalayan şəxslərin rəhbərlik etdiyi idarələrdə işləyən və ya fəaliyyət göstərən şəxslər tərəfindən təmsil olunurlar. Hər bir tərəf digər tərəfə yazılı bildiriş göndərməklə, həmin Tərəfi, bu

memorandum rəsmi düzəlişlər edilməsinin təsdiqlənməsi istisna olmaqla, istənilən məsələdə təmsil edəcək əlavə nümayəndələr təyin edə bilər. Hər bir tərəf qarşı tərəfi öz səlahiyyətli nümayəndələri ilə bağlı dəyişikliklərlə yazılı surətdə tanış etməlidir.

2.10. Əlavə və dəyişikliklər: Hazırkı Memorandum əlavə və dəyişikliklər Tərəflərin yazılı razılığı əsasında edilə bilər.

2.11. Dayandırılma və xitam:

A. Dayandırma.

(i) İqtisadi İnkişaf Nazirliyi bu Memorandumun hər hansı bir müddəasına riayət etməzsə;

(ii) USAİD bu Memorandumun məqsədinin əldə edilməsini və ya İqtisadi İnkişaf Nazirliyinin bu Memorandumun müddəalarına əməl etmə imkanını qeyri-mümkün edən fövqəladə vəziyyətin yaranmasını müəyyən edərsə;

(iii) USAİD bu yardımın təqdim edilməsinin ABŞ Hökumətinin qanun və ya qaydalarının pozulmasına səbəb olacağını müəyyən edərsə.

USAİD, seçiminə müvafiq olaraq, bu Memorandumda nəzərdə tutulmuş yardımın təqdim edilməsini tam və ya qismən dayandırmaq üçün tədbir görə və bu barədə İqtisadi İnkişaf Nazirliyinə yazılı bildiriş təqdim edə bilər. Qismən dayandırma zamanı qeyd olunan bildiriş dayandırmanın nəticəsinin şamil edildiyi fəaliyyət növünü qeyd etməlidir. Əgər belə bildirişin təqdim edilməsindən altmış (60) gün keçmiş USAİD dayandırmanın səbəbinin və ya səbəblərinin aradan qaldırılmadığını müəyyən edərsə, USAİD yardım təqdim edilməsinə xitam verə və bu barədə İqtisadi İnkişaf Nazirliyinə yazılı bildiriş təqdim edə bilər.

B. Xitam. İstənilən Tərəf digər Tərəfə otuz (30) gün əvvəl yazılı bildiriş təqdim etməklə bu Memorandum tam və ya qismən xitam verə bilər. Qismən xitam vermə zamanı, belə bildirişdə xitamın nəticəsinin şamil ediləcəyi fəaliyyətlər qeyd edilməlidir. Bu Memorandum xitam verilməsi Tərəflərin bu fəaliyyət üçün hər hansı maliyyə və ya digər resursların təqdim edilməsi üzrə hər hansı məsuliyyətinə, amma bu Memorandumun xitamına qədər üçüncü tərəflə saziş bağlayaraq üzərilərinə götürdükləri ləğv olunmaz öhdəliklərdən irəli gələn ödənişlər istisna olmaqla, xitam verəcək. İqtisadi İnkişaf Nazirliyinin bu Memorandum əsasən təqdim olunmuş əmlakdan istifadəyə

dair yuxarıda 3.4-cü bənddə qeyd olunmuş öhdəlikləri Memorandumun xitamından sonra da qüvvədə qalacaq. Bundan əlavə, belə bir xitamdan sonra USAİD, öz hesabına, bu Memoranduma əsasən ayrılmış əmlakın üzərində mülkiyyət hüququnu, əgər həmin əmlak Azərbaycandan kənarda olan mənbədəndirsə, daşınılan durumdadırsa və Azərbaycana giriş limanlarına boşaldılmamışdırsa, USAİD-ə keçirə bilər.

2.12. İddia hüququnun keçməsi: İqtisadi İnkişaf Nazirliyi, xahiş olunduqda, bu Memorandumla əlaqədar USAİD tərəfindən maliyyələşdirilən və USAID ilə imzalanmış kontraktın Tərəfinin kontraktdan irəli gələn əməli və ya öhdəliyi pozmasından və ya bununla əlaqədar yaranmış hər hansı iddia vermək hüququnun ABŞ dolları dəyərində birbaşa USAİD-ə keçməsinə razılaşır.

2.13. Müdafiə vasitəsindən imtina edilməməsi: Bu Memorandum ilə bağlı Tərəflərdən birinin malik olduğu hər hansı hüququn və ya müdafiə vasitəsinin həyata keçirilməsində yol verilmiş ləngimə bu hüquq və ya vasitədən istifadə edilməsindən imtina kimi yozulmamalıdır.

2.14. Dil: Bu Memorandum Azərbaycan və ingilis dillərində hazırlanmışdır. İki dildə olan mətnlər arasında hər hansı bir anlaşılmazlıq və ya ziddiyyət olduğu təqdirdə ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

2.15. Qüvvəyə minmə tarixi: Bu Memorandum hər iki Tərəfin hazırkı Memorandumu imzaladığı tarixdən qüvvəyə minir.

Bütün bunların təsdiqi olaraq, Tərəflərin hər biri müvafiq şəkildə səlahiyyətləndirilmiş nümayəndəsi vasitəsilə bu Memorandumu 7 yanvar, 2007-ci il tarixdə imzalamışlar.

Duqlas Menarçik	Heydər Babayev
Administratorun Avropa və Avrasiya üzrə müavini vəzifəsini icra edən ABŞ Beynəlxalq İnkişaf Agentliyi	Azərbaycan Respublikası İqtisadi İnkişaf Naziri